**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# S Ə R Ə N C A M I

№ 122 «17» iyul 2024 il

**Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılması məqsədilə yerlərin ayrılması haqqında**

Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılmasına şərait yaratmaq məqsədilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 86-cı maddəsinə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci, 4.15.3-cü və 6.8-ci maddələrinə əsaslanaraq

**qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı Binəqədi rayonu ərazisində seçicilərlə kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması məqsədi ilə müəyyən edilmiş qapalı və açıq yerlərin dislokasiyası təsdiq edilsin (dislokasiya əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində müvafiq köməklik göstərsinlər.

**3.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.7-ci

maddəsinin tələblərindən irəli gələn məsələlərin həll edilməsi Binəqədi Rayon Polis İdarəsinə həvalə edilsin.

**4.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri S.Əliyevə tapşırılsın ki, Sərəncamın surətlərinin Binəqədi Rayon Polis İdarəsinə və digər aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin.

**5.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti

**Elxan Allahverdiyev**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“ 17 ” iyul 2024-cü il tarixli, 622 №-li**

**Sərəncamı ilə təsdiq edilmişdir.**

**Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılması üçün ayrılmış yerlərin**

**D İ S L O K A S İ Y A S I**

**8 saylı Binəqədi birinci Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. 8-ci mikrorayon, İbrahimpaşa Dadaşov küçəsi 157, Tennis Akademiyası (qapalı idman zalı)

**Açıq yer:**

2. 8-ci mikrorayon, İbrahimpaşa Dadaşov küçəsi 157, Tennis Akademiyası

**9 saylı Binəqədi ikinci Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. Azadlıq prospekti 181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının akt zalı

**Açıq yer:**

2. M.Rəsulzadə qəsəbəsi, Rəşid Behbudov küçəsi, Dendroloji parkın ərazisi

**10 saylı Binəqədi üçüncü Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. Biləcəri qəsəbəsi, Yəhya Hüseynov küçəsi 18, Dəmiryolçuların Mədəniyyət evi

**Açıq yer:**

2. Binəqədi qəsəbəsi, Mətbuat küçəsi, İdman Sağlamlıq Kompleksinin stadionu

**11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. Xocəsən qəsəbəsi, Cökəli küçəsi, Qarabağ Regional Təhsil İdarəsi, Ağdam Təhsil sektoru, 149 saylı tam orta məktəbin akt zalı

**Açıq yer:**

2. Xocəsən qəsəbəsi, Cumhuriyyət küçəsi, Xocəsən qəsəbə stadionu